MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ

Şikar Qasımov
Tarix elmləri doktoru, professor
Bakı Mühəndislik Universiteti
https://doi.org/10.30546/19023.2026.1001.203

Giriş. Sələflərimiz çox zəngin maddi və qeyri-maddi mədəni irs nümunələri yaratmışlar. Bu nümunələr Azərbaycanın ərazilərində yetərincə qeydə alınmışdır. Belə mədəni abidələrin hər biri xalqın tarixinin, mədəniyyətinin və inkişafının əyani göstəricisidir. Ən əsası isə odur ki, Azərbaycan ərazilərində belə abidələrin sayı olduqca çoxdur və onların yaşı əsrlərlə hesablanır. Maddi-mədəniyyət abidələri ilə yanaşı, dini xarakterli məbədlər də bu ərazilərin tarixinin qədimliyini və zənginliyini özündə əks etdirir. Qobustan qayalıqlarında, Azıx mağarasında, Laçın, Kəlbəcər, Lerik və digər ərazilərdə ilk insanın əl işlərinin dövrümüzədək gəlib çıxmasında əsasən təbii-coğrafi amillər mühüm rol oynamışdır [5, s. 87]. Aşkar edilmiş mağaralar, sığınacaqlar və memarlıq abidələri sübut edir ki, bu yerlər sivilizasiyaların qovuşaraq yaratdığı mədəniyyətin beşiyi, ilk insan məskənlərindən biri olmuşdur.

YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş qiymətli arxeologiya, mədəniyyət və mənəviyyat nümunələri dünyada Azərbaycanın əsas təqdimat vasitələrindən biridir. Belə ki, YUNESKO-da təmsil olunan Azərbaycan xalqının və dövlətinin mədəni göstəriciləri sayılan xalçaçılıq sənəti, muğam və aşıq sənəti, milli musiqi alətlərimiz, möhtəşəm İçərişəhər və Qobustan abidələri dünyanın diqqətini cəlb etməklə yanaşı, həm də çoxsaylı tarixi-mədəni irsimizin nümunələri kimi dövlətçilik tariximizin və mədəniyyətimizin canlı ifadəsidir.

Onda belə bir sual ortaya çıxır: "Qeyri-maddi mədəni irs" nədir? Qeyri-maddi mədəni irs Azərbaycan xalqının mədəni ənənələrini təmsil edən, xalqın və onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan, qorunub saxlanılan və mədəni irsin ayrılmaz hissəsi kimi qəbul edilən dəyərlərdir. Bu irs ətraf mühit, təbiət və tarixlə qarşılıqlı təsir nəticəsində daim yenilənir, nəsildən-nəslə ötürülərək özünəməxsusluq və irsilik hissini formalaşdırır. Qeyri-maddi mədəni irsə adət-ənənələr, təqdimat və ifadə formaları, bilik və təcrübələr, həmçinin onlarla bağlı olan alətlər, əşyalar, artefaktlar və mədəni məkanlar daxildir.

Digər formada isə "qeyri-maddi mədəni irs nümunələri" və "qeyri-maddi mədəni irs" anlayışlarına ayrılıqda belə tərif vermək olar: "Qeyri-maddi mədəni irs nümunələri" - Azərbaycan xalqının mədəni ənənələrini təmsil edən, xalq və onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan, qorunub saxlanılan və mədəni irsin bir hissəsi kimi qəbul edilən, ətraf mühitlə qarşılıqlı təsir nəticəsində daim yenilənən və nəsildən-nəslə ötürülən nümunələrdir. "Qeyri-maddi mədəni irs" isə - Azərbaycan xalqının mənəvi, intellektual və əxlaq-etik dəyərlərini əks etdirən, cəmiyyətin milli-mədəni özünəməxsusluğunu və irsiliyini ifadə edən qeyri-maddi mədəni irs nümunələrinin məcmusudur [2, s. 15].

Yaxşı olar ki, mədəni irs dedikdə nəyin nəzərdə tutulduğuna və bu anlayışın necə başa düşüldüyünə ətraflı aydınlıq gətirək. Belə ki, Azərbaycan Respublikasının "Mədəniyyət haqqında Qanun"una əsasən, milli mədəni irs dedikdə Azərbaycan xalqına məxsus olan, ümumazərbaycan əhəmiyyəti daşıyan və universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu nəzərdə tutulur. Milli mədəni irsə muzey, incəsənət, audiovizual (o cümlədən kino), teatr, kitabxana, əlyazma və arxiv fondları, folklor, arxeologiya, etnoqrafiya, memarlıq, dekorativ-tətbiqi sənət nümunələri, eləcə də tarix-mədəniyyət qoruqları daxildir. Ümumilikdə milli mədəni irs iki əsas hissəyə bölünür: maddi

mədəni irs və qeyri-maddi mədəni irs. Maddi mədəni irs isə öz növbəsində iki əsas qrupa ayrılır: daşınmaz mədəni irs və daşınar mədəni irs [4, s. 17].

Daşınmaz maddi mədəni irs dedikdə arxeoloji, memarlıq, bağ-park, monumental və xatirə abidələri, dekorativ-tətbiqi sənət nümunələri, həmçinin mədəniyyət, memarlıq, bədii, etnoqrafiya və təbiət abidələri, tarixi qoruqlar, mədəniyyət məkanları, məqbərələr, arxeoloji komplekslər, memarlıq ansamblları, dini ocaqlar və etnoparklar nəzərdə tutulur. Daşınmaz mədəni irs nümunələrinin əsas xüsusiyyəti ondan ibarətdir ki, onların yeri dəyişdirildikdə mədəni irs dəyəri itə və ya ciddi şəkildə zəifləyə bilər. Bu səbəbdən daşınmaz mədəni irs nümunələri, demək olar ki, həmişə yerləşdikləri məkanla sıx və ayrılmaz şəkildə bağlı olur.

Daşınar mədəni irs dedikdə tarixi, təbii, arxeoloji, sənədli, etnoqrafik, kulinar, bədii, elmi-tədqiqat, rəsm, incəsənət, kinematoqrafiya, numizmatika, filatelistika, heraldika, biblioqrafiya, epigrafika, estetik, etnoloji və antropoloji xarakterli daşınan sərvətlərin məcmusu nəzərdə tutulur. Azərbaycanda dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə təsdiq edilmişdir [11]. Bu qərara əsasən, Azərbaycanda dövlət mühafizəsinə götürülmüş abidələrin sıra nömrələri onların inventar nömrəsi hesab edilir və abidələrin üzərində bu barədə məlumatı əks etdirən lövhələr yerləşdirilir.

Beləliklə, əvvəldə də qeyd edildiyi kimi, qeyri-maddi mədəni irs dedikdə şəxslərin, qrupların və bütövlükdə cəmiyyətin mədəni irs nümunələri kimi qəbul etdikləri ənənələr, təsvir və ifadə formaları, bilik və bacarıqlar, həmçinin onların yaradılmasında istifadə olunan alətlər, əşyalar, artefaktlar və mədəniyyət məkanları nəzərdə tutulur.

Mövcud Azərbaycan qanunvericiliyinə görə qeyri-maddi mədəni irs üç əsas kateqoriyanı əhatə edir. Bunlardan birincisi etnoqrafiya və ya diyarşünaslıqdır ki, buraya adət və ənənələr, bayram və mərasimlər, tarixi rəmz nümunələri və müxtəlif sirlər daxildir. İkinci kateqoriya folklordur və bu sahəyə ifaçılıq, musiqi və rəqslər, şifahi yaradıcılıq, oyun və tamaşalar aiddir. Üçüncü kateqoriya isə xalq sənətkarlığıdır ki, bu sahəyə tətbiqi sənət, ənənəvi dekorativ sənət və milli təsviri yaradıcılıq nümunələri daxildir.

Azərbaycanda qeyri-maddi mədəni irs nümunələrinin siyahısı və onlar haqqında təfsilatlı məlumatlar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən qeydiyyata alınır. Bununla yanaşı, Azərbaycana məxsus bir sıra qeyri-maddi mədəni irs nümunələri YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmişdir.

Belə bir qənaətə gəlmək olar ki, qeyri-maddi mədəni irs siyahısı YUNESKO-nun Ümumdünya irsi layihəsinə bənzər, lakin mədəniyyətin qeyri-maddi sahələrini əsas götürən konsepsiyadır. Bu konsepsiya YUNESKO-nun 2003-cü il sentyabrın 29-dan oktyabrın 17-dək Parisdə keçirilmiş 32-ci sessiyasında qəbul edilmiş "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya ilə tənzimlənir [9]. Qeyri-maddi mədəni irs anlayışından son illərdə geniş istifadə olunur və bu anlayış əsasən mənəvi mədəniyyət sahələrini əhatə edir. YUNESKO-nun 2003-cü il 17 oktyabr tarixində qəbul etdiyi "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyada qeyri-maddi mədəni irsin tərifi, qeyri-maddi mədəni irs siyahısının tərtib edilməsi və həmin siyahıya daxil edilmə qaydaları öz əksini tapmışdır. Eyni zamanda qeyri-maddi mədəni irslə maddi, mədəni və təbii irs arasında qarşılıqlı əlaqə və asılılıqlar mövcuddur. Belə ki, qloballaşma və sosial dəyişiklik prosesləri icmalar arasında dialoqun yenilənməsinə şərait yaratmaqla yanaşı, müəyyən hallarda dözümsüzlük təzahürlərinə də səbəb olur. Xüsusilə qeyri-maddi mədəni irsin qorunması üçün vəsait çatışmazlığı bu irsin deqradasiyaya uğraması, yox olması və ya məhv edilməsi riskini artırır. Buna görə də bəşəriyyətin qeyri-maddi mədəni irsinin qorunmasına yönəlmiş səylər və bu sahədə yaranan ümumi

narahatlıq xüsusi diqqət çəkir. Bu narahatlıqların aradan qaldırılması məqsədilə YUNESKO tərəfindən mədəni irsin mühafizəsinə yönəlmiş normativ sənədlərin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, xüsusilə 1972-ci il "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyanın qəbul edilməsi və bu sahədə aparılan fəaliyyət böyük əhəmiyyətə malikdir.

Bununla yanaşı, hazırda qeyri-maddi mədəni irsin qorunması ilə bağlı məcburi hüquqi qüvvəyə malik çoxtərəfli hüquqi aktların yetərli olmaması, bu sahədə mövcud olan beynəlxalq sazişlərin, tövsiyə və qətnamələrin yeni müddəalarla zənginləşdirilməsinə ehtiyacın olması, eləcə də qeyri-maddi mədəni irsin qorunmasının əhəmiyyətinin gənc nəsillər tərəfindən daha dərindən qavranılmasının zəruriliyi kimi mühüm məsələlər də diqqət mərkəzindədir. "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanın əsas məqsədi qeyri-maddi mədəni irsin qorunmasını təmin etmək, yerli, milli və beynəlxalq səviyyələrdə onun əhəmiyyəti barədə məlumatlılığı artırmaq, beynəlxalq əməkdaşlığı genişləndirmək və bu sahədə qarşılıqlı yardımı təşviq etməkdən ibarətdir. Eyni zamanda Konvensiyaya qoşulan hər bir dövlət öz ərazisində mövcud olan qeyri-maddi mədəni irsin qorunmasını təmin etmək üçün zəruri tədbirlər görməlidir. Bu məqsədlə icmaların, qrupların və müvafiq qeyri-hökumət təşkilatlarının iştirakı ilə öz ərazisində mövcud olan qeyri-maddi mədəni irs elementlərini müəyyənləşdirməli və eyniləşdirməlidir. Qoruma məqsədilə belə eyniləşdirmənin həyata keçirilməsi üçün hər bir iştirakçı dövlət öz imkanlarını və mövcud şəraitini nəzərə alaraq, ərazisində mövcud olan qeyri-maddi mədəni irs elementlərini əhatə edən bir və ya bir neçə siyahı tərtib etməlidir. Bu siyahılar isə mütəmadi olaraq yenilənməlidir [2, s. 34].

Hər bir iştirakçı dövlət qeyri-maddi mədəni irsin qorunması ilə bağlı öz fəaliyyəti çərçivəsində bu irsin yaradılması, saxlanılması və gələcək nəsillərə ötürülməsi ilə məşğul olan icmaların, qrupların və müvafiq hallarda ayrı-ayrı şəxslərin mümkün qədər geniş iştirakını təmin etməyə çalışır. Bununla yanaşı, həmin subyektlərin bu irsin idarə olunması prosesinə fəal şəkildə cəlb olunmasına da xüsusi diqqət yetirilir.

Qeyri-maddi mədəni irsin qorunması məqsədilə Hökumətlərarası Komitə təsis edilir. Bu Komitə Konvensiyada iştirak edən dövlətlərin nümayəndələrindən ibarət olur. Qeyri-maddi mədəni irsin geniş şəkildə tanıdılmasını təmin etmək, onun əhəmiyyətinin daha dərindən dərk olunmasına və müvafiq mühafizə tədbirlərinin həyata keçirilməsinə kömək göstərmək, eləcə də mədəni rəngarəngliyə hörmət əsasında dialoqu təşviq etmək məqsədilə Komitə, iştirakçı dövlətlərin təqdim etdiyi təkliflər əsasında bəşəriyyətin qorunmağa ehtiyacı olan qeyri-maddi mədəni irs nümunələrinin Reprezentativ Siyahısını tərtib edir, onu mütəmadi olaraq yeniləyir və dərc edir.

Beynəlxalq yardım təcili müdafiəyə ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş irsin qorunmasına, qeyri-maddi mədəni irsin mühafizəsi məqsədilə milli və regional səviyyələrdə həyata keçirilən proqramların, layihələrin və tədbirlərin dəstəklənməsinə, həmçinin Komitənin zəruri hesab etdiyi digər məqsədlərə yönəldilə bilər [8].

Məlum olduğu kimi, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qarabağ və ətraf yeddi rayonda Azərbaycanın tarixi, mədəni və dini abidələri barbarcasına dağıdılmış, qəsdən məhv edilmişdir. Bu hallar "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, YUNESKO-nun 1972-ci il tarixli "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyasına, eləcə də 1992-ci il "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına zidd olsa da, beynəlxalq birlik uzun müddət bu cür siyasətin qarşısının alınmasında qəti mövqe göstərməmiş, bu vandalizmə ikili standartlarla yanaşmışdır [5, s. 95-96].

Əslində isə tarixin yaddaşı sayılan bu abidələr və qeyri-maddi mədəni irs nümunələri mədəni inkişafın mühüm göstəriciləridir. Məhz buna görə də qeyri-maddi mədəni irs nümunələrinin

qorunması və gələcək nəsillərə çatdırılması son dərəcə vacib məsələlərdən biridir. 1983-cü ildə YUNESKO çərçivəsində Beynəlxalq Abidələrin Mühafizəsi Assambleyasının təsis edilməsində də əsas məqsəd diqqəti maddi mədəniyyət nümunələrinin və tarixi abidələrin qorunmasına yönəltmək olmuşdur [7].

Yaranmış beynəlxalq təşkilatların məqsəd və mahiyyətini düzgün qiymətləndirən Azərbaycan 1992-ci ilin iyun ayında YUNESKO-ya üzv qəbul edilmişdir. 1996-cı ildə isə YUNESKO ilə Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Həmin vaxtdan etibarən BMT-nin elm, təhsil və mədəniyyət sahələrində fəaliyyət göstərən bu nüfuzlu təşkilatı ilə ölkəmizin əlaqələri daha da genişlənməyə başlamışdır.

2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində göstərdiyi yorulmaz fəaliyyətə görə Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür [1]. Bundan sonra YUNESKO ilə Azərbaycan arasında əlaqələr daha da intensiv şəkildə inkişaf etməyə başlamışdır.

YUNESKO yarandığı vaxtdan etibarən bəşəri dəyərlərin qorunması və onların gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərir. Bununla belə, təəssüf ki, 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərinin 20 faizinin işğal altında qalmasına, Qarabağ və ətraf yeddi rayonda yerləşən tarixi və memarlıq abidələrinin, mədəni və qeyri-maddi mədəni irs nümunələrinin Ermənistan tərəfindən vandalcasına məhv edilməsinə bu təşkilatın lazımi səviyyədə reaksiya verməməsi də qeyd olunmalıdır.

Bununla yanaşı, Azərbaycanın bir sıra qeyri-maddi mədəniyyət nümunələri də YUNESKO-nun diqqət mərkəzində olmuşdur. Milli-mənəvi dəyərlərimizdən olan muğam sənəti, Novruz bayramı, aşıq sənəti və xalçaçılıq YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunması üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Xalqımızın yaratdığı bu sənət incilərinin YUNESKO xətti ilə dünya miqyasında təbliğ olunması ölkəmiz üçün mühüm hadisə olmaqla yanaşı, Azərbaycanın müsbət imicinin formalaşmasına da əhəmiyyətli töhfə vermişdir.

Bu faktlar həm milli mədəni maraqlarımızın qorunduğunu, həm də dövlətimizin milli mədəniyyətə verdiyi yüksək dəyəri nümayiş etdirir və eyni zamanda bəşəri dəyərlərə xidmət etməyin göstəricisi kimi çıxış edir. Məsələn, Azərbaycan xalçaları uzun illər müxtəlif ölkələrdə İran və ya Qafqaz xalçaları kimi təqdim edildiyi halda, bu gün artıq dünya miqyasında öz adı ilə - Azərbaycan xalçaları kimi tanınır [7].

YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" 2003-cü il Konvensiyası əsasında fəaliyyət göstərən Hökumətlərarası Komitənin sessiyaları 2006-cı ildən etibarən ildə bir dəfə keçirilir. 2013-cü ildə Komitənin sayca 8-ci sessiyasına Bakı şəhəri ev sahibliyi etmişdir. Hökumətlərarası Komitə seçkilər yolu ilə formalaşan 24 üzv dövlətdən ibarətdir. YUNESKO-ya üzv olan 180 ölkənin qoşulduğu "Qeyri-maddi mədəni irsin qorunması haqqında" 2003-cü il Konvensiyası Azərbaycan Respublikası tərəfindən 18 yanvar 2007-ci ildə ratifikasiya edilmişdir. Azərbaycan 2018–2022-ci illər ərzində də Komitənin üzvü olmuşdur [3, s. 1, 3].

YUNESKO tərəfindən qeyri-maddi mədəni irs nümunələrinin siyahıya daxil edilmə ardıcıllığına nəzər saldıqda qeyd etmək lazımdır ki, Azərbaycan muğam sənəti hələ 7 noyabr 2003-cü ildə YUNESKO tərəfindən "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsəri" elan edilmişdir. Qeyri-maddi mədəni irslə bağlı Konvensiya 2008-ci ildə qüvvəyə mindikdən sonra tərtib olunan Reprezentativ Siyahıya ilk daxil edilən nümunələrdən biri də məhz muğam sənəti olmuşdur. Bu qərar 2008-ci il 4-8 noyabr tarixlərində İstanbul şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 3-cü sessiyasında qəbul edilmişdir [3, s. 3].

Bundan başqa, "Azərbaycan aşıq sənəti" və "Novruz" bayramı da çoxmillətli nominasiya kimi (Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə və Özbəkistan) 28 sentyabr - 2 oktyabr 2009-cu il tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 4-cü sessiyasında qəbul edilən qərara əsasən YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir. Daha sonra həmin nominasiyaya Əfqanıstan, İraq, Qazaxıstan, Tacikistan və Türkmənistan da qoşulmuşdur. Bu qərar 28 noyabr - 2 dekabr tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 11-ci sessiyasında təsdiq edilmişdir [7].

Öz unikallığı ilə seçilən "Azərbaycan xalçaçılıq sənəti" 15-19 noyabr 2010-cu il tarixlərində Keniya Respublikasının Nayrobi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin V sessiyasında qəbul edilən qərara əsasən YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmişdir. Bu hadisə Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin mədəniyyətinə göstərdiyi yüksək diqqət və qayğının, həmçinin Azərbaycanın qeyri-maddi mədəni irs nümunələrinin qorunması və beynəlxalq səviyyədə təbliği istiqamətində fəaliyyət göstərən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi ilə həyata keçirilən tədbirlərin nəticəsi kimi mümkün olmuşdur [6, s. 8-9]. Eyni sessiya çərçivəsində "Ənənəvi Azərbaycan xalçaçılıq sənəti" də YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Daha sonra "Tar və onun ifaçılıq sənəti" 3-7 dekabr 2012-ci il tarixlərində Parisdə keçirilmiş YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 7-ci sessiyasında qəbul edilən qərara əsasən Reprezentativ Siyahıya daxil edilmişdir.

"Azərbaycan Respublikasında çovqan - ənənəvi Qarabağ atüstü oyunu" isə 2-8 dekabr 2013-cü il tarixlərində Bakıda keçirilmiş YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasında qəbul edilmiş qərara əsasən Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

Bununla yanaşı, "Ənənəvi kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadə olunması" 24-28 noyabr 2014-cü il tarixlərində Parisdə keçirilmiş Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 9-cu sessiyasında YUNESKO-nun Reprezentativ Siyahısına daxil edilmişdir.

"Lahıcın misgərlik sənəti" isə 30 noyabr - 4 dekabr 2015-ci il tarixlərində Namibiyada keçirilmiş Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 10-cu sessiyasında qəbul edilən qərara əsasən YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir [6, s. 8-9].

Azərbaycanda nazik çörəyin hazırlanması və bişirilməsi də özünəməxsus mədəni ənənə kimi xüsusi əhəmiyyət daşıyır. Bu ənənənin nümunəsi olan lavaş, katırma, jupka və yufka (yuxa) 28 noyabr - 2 dekabr 2016-cı il tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 11-ci sessiyasında çoxmillətli nominasiya kimi YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmişdir.

Azərbaycanın qədim milli yeməklərindən biri olan dolma da qeyri-maddi mədəni irs nümunəsi kimi böyük əhəmiyyət daşıyır. Dünyada dolmanın 30-a yaxın növü mövcuddur və bu söz türk mənşəli olub "dolmaq" feilindən götürülmüşdür. Mədəni kimliyin göstəricilərindən biri sayılan "dolmanın hazırlanması və paylaşılması ənənəsi" 6 dekabr 2017-ci il tarixində Koreya Respublikasının Jeju

adasında keçirilmiş YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında qəbul edilən qərara əsasən YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir [6, s. 9].

Azərbaycan yüzillər boyu zəngin musiqi ənənələri, musiqi alətlərinin hazırlanması və ustad ifaçıları ilə seçilmişdir. Azərbaycanın ən qədim qeyri-maddi mədəni irs nümunələrindən biri də milli musiqi alətimiz olan kamançadır. Kamançanın müxtəlif formaları başqa adlarla Şərq və Orta Asiya xalqları arasında da yayılmışdır. Bu alət Azərbaycan, İran və Qafqazın müxtəlif ölkələrində kamança adı ilə tanınır, Misirdə kamanqa, Orta Asiyada isə qişek adlandırılır [9]. Bütün bunların nəticəsi olaraq "Kamança simli musiqi alətinin hazırlanma və ifaçılıq sənəti" Azərbaycan və İranın birgə təqdim etdiyi çoxmillətli nominasiya kimi 7 dekabr 2017-ci ildə Koreya Respublikasının Jeju adasında keçirilmiş YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Azərbaycanda kamança ifaçılığının inkişafı xüsusilə XIX əsrin ikinci yarısından etibarən xanəndəlik sənətinin yüksəlişi ilə sıx bağlı olmuşdur. İlk kamança nümunələrinin balqabaqdan və hind qozundan hazırlandığı, fil sümüyü ilə bəzədildiyi məlumdur. Tədqiqatçılar bir və iki simli kamançanın qədim yaylı qopuzdan formalaşdığını da ehtimal edirlər. Orta əsr klassiklərinin əsərlərində kamança haqqında geniş məlumat verilir. XVI əsr Təbriz rəssamlıq məktəbinin nümayəndəsi Mir Seyid Əlinin "Musiqi məclisi" əsərində bərbət, dəf və kamança alətləri təsvir edilmişdir. Əbdülqadir Marağayi də öz əsərlərində kamançanın adını çəkmiş və onun haqqında məlumat vermişdir. XVII əsrdə Azərbaycana səyahət etmiş alman səyyahı E. Kempfer kamançanın üç və bəzən dörd simli alət olduğunu və çox gözəl səs tembri ilə seçildiyini qeyd etmişdir. Nizami Gəncəvi də "Xosrov və Şirin" poemasında kamançanı təsvir etmişdir. Kamança xalq çalğı alətləri orkestrində və ansambllarda əsas melodiyanı aparan solo alətlərdən biri hesab olunur. Tarixən bu alətin simlərinin sayı bir, iki, üç və daha sonralar dörd və hətta doqquz simə qədər olmuşdur. Müasir dövrdə isə kamança əsasən dörd simdən ibarət olur və ifa zamanı sol dizin üstündə saxlanılaraq çalınır. XIX əsrdə üçsimli, dördsimli və beşsimli kamançaların mövcudluğu məlumdur. Azərbaycan Milli Tarix Muzeyinin etnoqrafiya fondunda saxlanılan XIX əsrə aid beşsimli kamança bu baxımdan xüsusi maraq doğurur. Həmin muzeydə görkəmli bəstəkar Zülfüqar Hacıbəyova məxsus kamança da nümayiş etdirilir. Kamança çanaq, qol və çanağın içərisindən keçərək hər iki hissəni birləşdirən şişdən ibarətdir. Çanaq, qol və aşıqlar qoz ağacından hazırlanır. Çanağın üzərinə nərə balığının dərisindən hazırlanmış xüsusi üzlük çəkilir. Alətin səslənməsinin keyfiyyətli olması üçün qol ilə simlər arasındakı məsafənin düzgün təyin edilməsi mühüm əhəmiyyət daşıyır. Kamança tut və ya qoz ağacından hazırlanır, kaman isə at tükündən düzəldilir. Ümumi uzunluğu təxminən 700 mm, çanağının hündürlüyü 175 mm, eni isə 195 mm-dir. Azərbaycanda məşhur kamança ifaçıları sırasında Habil Əliyevin və Şəfiqə Eyvazovanın adları xüsusi qeyd olunur. Tarixi faktlara və ardıcıl dəlillərə baxmayaraq, bəzən Ermənistan tərəfi kamançanı özününküləşdirməyə cəhd göstərmişdir. Lakin YUNESKO-da aparılan müzakirələr zamanı Azərbaycan nümayəndələri tarixi faktlara əsaslanaraq kamançanın Azərbaycan musiqi mədəniyyətinə məxsus olduğunu sübut etmişlər. Bu məsələdə Türkiyənin YUNESKO-dakı nümayəndə heyəti də Azərbaycana dəstək göstərmişdir. Musiqişünasların qeyd etdiyi kimi, ermənilər kamançada ifa etməyi tarixən azərbaycanlı musiqiçilərdən öyrənmiş və muğam ifaçılığını təqlid etmişlər. Buna görə də kamança heç vaxt erməni qeyri-maddi mədəni irsi hesab olunmamışdır.

2018-ci il 26 noyabr - 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port-Luis şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında da Azərbaycan qeyri-maddi mədəni irsi ilə bağlı iki nominasiya qəbul edilmişdir. "Yallı (Köçəri, Tənzərə) - Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun

Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına, Azərbaycanın Türkiyə və Qazaxıstanla birgə təqdim etdiyi "Dədə Qorqud irsi - dastan mədəniyyəti, xalq nağılları və musiqisi" isə Reprezentativ Siyahıya daxil edilmişdir [6, s. 8].

YUNESKO-nun digər mötəbər siyahısı olan Ümumdünya İrs Siyahısında da Azərbaycanın üç tarixi-mədəni məkanı yer alır. Bunlar 2000-ci ildə daxil edilən İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu (Şirvanşahlar sarayı və Qız qalası), 2007-ci ildə daxil edilən Qobustan Milli Tarixi-Bədii Qoruğu və 2019-cu ildə siyahıya salınan Şəki Xan Sarayı və Şəkinin tarixi mərkəzidir. Bundan əlavə, YUNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə Şəki şəhəri (sənətkarlıq və xalq yaradıcılığı) və Bakı şəhəri (dizayn sahəsi) daxil edilmişdir [3, s. 1-3].

Azərbaycanda ənənəvi qrup rəqslərindən biri olan yallı xalqın toy-düyünlərində və müxtəlif bayram tədbirlərində geniş şəkildə icra olunur. Bu rəqs kollektiv xarakter daşıyır və bəzən peşəkar rəqqasların iştirakı ilə rəsmi tədbirlərdə də nümayiş etdirilir. Yallı rəqsi 2019-cu ildə YUNESKO-nun müvafiq siyahısına daxil edilməklə Azərbaycanın qeyri-maddi mədəni irsinin mühüm nümunələrindən biri kimi tanınmışdır.

2019-cu ildə əldə edilən mühüm nailiyyətlərdən biri də "Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi"nin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsidir. Bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, Şəkinin tarixi mərkəzində yerləşən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri artıq yalnız Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin mədəni irsi hesab olunur. Prezident həmçinin vurğulamışdır ki, Azərbaycan qədim sivilizasiyaya və zəngin mədəniyyətə malik ölkədir və burada əsrlər boyu müxtəlif dinlərin və millətlərin nümayəndələri sülh və qarşılıqlı hörmət şəraitində yaşamışlar [6, s. 8-9].

2020-ci il 16 dekabr tarixi də Azərbaycanın mədəniyyət tarixində əlamətdar hadisə kimi qeyd olunmuşdur. Həmin gün YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin 15-ci sessiyasında Azərbaycanın daha iki mədəni irs nümunəsi - "Nar bayramı" və Azərbaycan, Türkiyə, İran və Özbəkistanın birgə təqdim etdiyi "Miniatür sənəti" YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Ermənistan tərəfi bu nominasiya ilə bağlı etiraz müraciətləri göndərsə də, Azərbaycan nümayəndələri beynəlxalq hüququn prinsiplərinə və tarixi faktlara əsaslanaraq bu iddialara əsaslı cavab vermişlər. Bu mühüm qərarın qəbul edilməsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti və YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi, eləcə də Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, YUNESKO yanında Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi və YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur [10].

Dövr	Bəşəriyyətin Qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısında olanlar	Təhlükə altında olanlar	Ümumi qeyri-maddi mədəni irs sayı
2000-ci illər	3	0	3
2010-cu illər	8	2	10
2020-ci illər	11	0	11
Ümumi say	22	2	24

Nəticə. Ümumilikdə götürdükdə YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına Azərbaycandan 24 nümunə daxil edilmişdir. Bunlardan 22-si Bəşəriyyətin qeyri-maddi mədəni

irsinin Reprezentativ Siyahısına, 2-si isə - Qarabağ atı ilə oynanılan çövkən atüstü oyunu və Naxçıvanın ənənəvi qrup rəqsləri (yallı, köçəri, tənzərə) - "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısı"-na daxil edilmişdir. Azərbaycandan seçilmiş YUNESKO-nun qeyri-maddi mədəni irs nümunələri "Avropa və Şimali Amerika" kateqoriyası üzrə təqdim olunur. Bu irs nümunələrindən 12-si yalnız Azərbaycana məxsus, digər 12-si isə çoxmillətli nominasiya kimi təqdim edilmişdir [3, s. 3].

Azərbaycandan YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş nümunələrin illər üzrə bölgüsü, təhlükə altında olan nümunələr və ümumi sayı aşağıdakı cədvəldə göstərilmişdir [10]. Beləliklə, cədvəldə verilən məlumatlar da göstərir ki, Azərbaycanın mədəni inkişaf tarixinə nəzər saldıqda onun həm maddi, həm də qeyri-maddi mədəni irs baxımından olduqca zəngin olduğu aydın şəkildə görünür. Bu irs nümunələrinin əhəmiyyətli hissəsi artıq qeydiyyata alınmış və YUNESKO-nun siyahılarına daxil edilərək dünya mədəni irsinin tərkib hissəsinə çevrilmişdir.

Gələcəkdə də çalışmalıyıq ki, YUNESKO siyahılarında hələ yer almayan Azərbaycanın digər qeyri-maddi mədəni irs nümunələri də beynəlxalq səviyyədə tanıdılaraq həmin siyahılarda öz layiqli yerini tutsun.

Ədəbiyyat:

1. Mükərrəmoğlu M. Azərbaycan qeyri-maddi mədəni irs nümunələri YUNESKO tərəfindən qorunur // Xalq qəzeti. – 2011. – 25 avqust. – № 187. – S. 4.
2. İmanov K. Qeyri-maddi mədəni irs (QMMİ) anlayışı və onun istifadəsi. – Bakı, – 2023. – 35 s.
3. Mədəni irsimizin YUNESKO-da yeni təntənəsi: Nar bayramı və miniatür sənəti "Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahı"ya daxil edildi // Mədəniyyət. – 2020. – 18 dekabr. – S. 1, 3. – URL: https://www.anl.az/down/meqale/medeniyyet/2020/dekabr/730382.htm – Götürülmə tarixi: 01.04.2026.
4. Mustafayev E., Kərimov E. Azərbaycanda mədəni irs və mədəni turizm: resurslar, məhsullar, təcrübələr. - Bakı, 2022. - 112 s.
5. Qasımov Ş. Azərbaycanın qeyri-maddi mədəni irsi və onun YUNESKO-dakı yeri // Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti / Haz.: F. Xəlilli. - Bakı: AFPoliqrAF, 2025. - S. 87-102. - DOI: https://doi.org/10.30546/978-9952.2025.1087
6. Əhmədova N. Mehriban Əliyevanın fəaliyyətində multikulturalizm dəyərləri: qeyri-maddi irsin qorunması // Səs. – 2019. – 14 noyabr. – S. 8-9; 19 noyabr. – S. 12.
7. Azərbaycanda YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısı [Elektron resurs]. – URL: https://azculture.uz/azerbaycan.php?link=azerbaycan_qeyrimed_miras – Götürülmə tarixi: 01.04.2026.
8. Qeyri-maddi mədəni irs [Elektron resurs]. – URL: https://culture.gov.az/az/activity/32 – Götürülmə tarixi: 01.04.2026.
9. Azərbaycanın böyük mədəni irsi [Elektron resurs]. – URL: https://azculture.uz/azerbaycan.php?link=azerbaycan_medeni_miras – Götürülmə tarixi: 09.03.2026.
10. Azərbaycanda YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısı [Elektron resurs]. – URL: https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_YUNESKO-nun_qeyri-maddi_m%C9%99d%C9%99ni_irs_siyah%C4%B1s%C4%B1 – Götürülmə tarixi: 01.04.2026.
11. Azərbaycan Respublikası Nazirlər Kabineti. Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında qərar № 132, 2 avqust 2001-ci il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. - 2001. - № 8. - s. 1720-1919.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300